# AZƏRBAYCAN RESPUBLİKASI

# VERGİLƏR NAZİRLİYİ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

## BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# Məhdud Məsuliyyətli Cəmiyyətlərdə Nizamnamə Kapitalının artırılması qaydaları



**2014**

## MÜNDƏRİCAT

Almaniya Federativ Respublikası........................................................................ 2
İsveçrə Konfederasiyası .........................................................................................3
Rusiya Federasiyası..........................................................................................5

***Almaniya Federativ Respublikası***

Almaniya Federativ Respublikasında Məhdud Məsuliyyətli Cəmiyyətin minimum nizamnamə kapitalı 25 000 Avro həcmində nəzərdə tutulmuşdur. Müxtəlif payçılar arasında pay bölgüsünü asanlıqla həyata keçirə bilmək üçün hər pay üzrə minimum nominal 1 Avro müəyyən olunub. MMC hüquqi şəxs formasında bütün şəriklər hərəyə **bir pay** sahibi olur, lakin daha sonra mövcud payın ötürülməsi və ya yeni payların buraxılması nəticəsində daha çox pay sahibi ola bilərlər. Yeni payların buraxılması yalnız **ortaqların qərarı** ilə mümkündür və bu da öz növbəsində əsasnamədə dəyişiklik edilməsini şərtləndirir. Payçıların qərarı əsasında yeni buraxılan paylar ya mövcud şəriklər arasında ya da üçüncü şəxslərə təklif ediləcəkdir. Yeni paylar nağd və ya nağd ekvivalenti dəyərlər vasitəsilə həyata keçirilə bilər. Nağd ekvivalenti dəyərlər istifadə olunarsa onda həmin investisiyanın dəyəri kənar auditor tərəfindən qiymətləndirilərək rəy alınaraq qeydiyyat orqanına təqdim edilir.

Almaniyada məhdud məsuliyyətli cəmiyyətlərdə nizamnamə kapitalının artırılması "Məhdud məsuliyyətli cəmiyyətlər haqqında" aktla tənzimlənir. Həmin akta əsasən MMC-lərin nizamnamə kapitalı aşağıdakı iki formadan biri ilə artırılır:

**1 –Mövcud payın nominal dəyərinin artırılması**

**2 – Yeni payların buraxılması**

Kapitalın artırılması haqqında qərar protokolunda hansı üsulla artımın olması qeyd olunmalıdır. Hər bir MMC-nin kapital artımı növündən asılı olmadan notarial təsdiq olunmalı və kommersiya qeydiyyatında əks olunmalıdır. Üç ay ərzində qeydiyyata alınmayan kapital artımları qanunsuz sayılır. Kapital artırılmasını əks etdirən balans hesabatı və artıma dair auditor rəyi kommersiya qeydiyyatını aparan məhkəməyə təqdim olunmalıdır.

MMC yeni paylar buraxaraq nizamnamə kapitalını artırdıqda, yeni buraxılan pay, payçılar arasında **sahib olduqları faiz nisbətində** bölüşdürülür. Bundan istənilən

kənarlaşma qanuna ziddir. Nizamnamə kapitalının artırılması ilə, paylara münasibətdə hüquqlar dəyişmədən qalır.

*İsveçrə Konfederasiyası*

İsveçrə Mülki Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Federal Qanunun 5-ci hissəsi olan **Öhdəliklər Məcəlləsinin** 781-ci maddəsinə əsasən **təsisçilərin ümumi yığıncağı** nizamnamə kapitalının artırılmasına qərar verən orqan hesab edilir. Həmin Məcəllənin 786-cı və 787-ci maddələrinə əsasən kapital qoyuluşu və şirkət paylarının transferi ümumi yığıncaqda iştirakçılar (payçılar) tərəfindən tam şəkildə təsdiqlənməlidir. Bu qərarın icrası isə direktorlar şurasının məsuliyyətinə aid edilir. Payların mövcud təsisçilər tərəfindən alınması və kapital qoyuluşu şirkətin təsis sazişində nəzərdə tutulmuş müddəalarla tənzimlənir. Payın alınması yolu ilə şirkətin kapitalının artırılması ancaq mövcud təsisçilər tərəfindən həyata keçirilə bilər. Bununla yanaşı, payın alınması yolu ilə kapital qoyuluşu isə ictimaiyyətə açıq deyildir. Nizamnamə kapitalının artırılmasının kommersiya qeydiyyatı iştirakçıların ümumi yığıncağının qərarından sonra üç ay ərzində həyata keçirilməlidir, əks təqdirdə qərar etibarsız hesab edilir. Əlavə olaraq, payın alınması yolu ilə kapitalda artım üçün aşağıdakı şərtlər ödənməlidir:

1. İştirakçıların ümumi yığıncağının qərarı
2. Şirkətin iştirakçılarının payın alınmasında iştirak hüququ
3. Şirkətin kapitalının iştirak payı əsasında artımı
4. Kapital artışı haqqında hesabat və audit təsdiqi
5. İştirakçıların ümumi yığıncağı tərəfindən nizamnamənin müddəalarına dəyişiklik edilməsi və bunun elan edilməsi
6. Nizamnamə kapitalının artımının kommersiya qeydiyyatı

Qeyd olunan məcəlləyə əsasən əlavə kapital qoyuluşu xüsusi şərtlərlə tənzimlənir. Həmin şərtlərə əsasən əlavə kapital qoyuluşu təsis sazişində nəzərdə

tutulmuş qisamüddətli likvidlik və ya kapital ehtiyacının ödənilməsi üçün istifadə edilə bilər.

**Öhdəliklər Məcəlləsinin 821-ci maddəsinə** əsasən aşağıdakı hallarda MMC-lər ləğv olunmalıdır:

1. Təsis sazişində göstərilən şərtlər meydana gəldikdə
2. İştirakçıların ümumi yığıncağının qərarı
3. Müflisləşmə prosesinin başlanması
4. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda

İştirakçıların ümumi yığıncağında qəbul edilmiş ləğvetmə haqqında qərardan sonra qərar ictimaiyyətə açıqlanmalıdır.

Bununla yanaşı, **Məcəllənin 822-ci maddəsinin** birinci bəndinə əsasən şirkətin hər bir iştirakçısının (payçının) **əsaslı səbəb göstərməklə iştirakdan imtina hüququ var**. Bunun üçün iştirakçı (payçı) **məhkəməyə ərizə** ilə müraciət etməlidir. Həmin **maddənin 2-ci** bəndinə əsasən isə **təsis haqqında sazişdə göstərilən şərtlər** çərçivəsində payçıların iştirakdan imtina hüququ **(məhkəməyə müraciət etmədən)** da mövcuddur. Bu vəziyyət, yalnız **təsis sazişində iştirakdan imtina hüququnun əks etdirildiyi** halda mümkündür.

Həmin **Məcəllənin 822a** maddəsinə əsasən şirkət iştirakçısı (payçısı) məhkəməyə müraciət etməklə və ya təsis sazişinin ona verdiyi hüquqdan istifadə etməklə iştirakdan imtina etməsi haqqında məlumat **direktorlar şurası** tərəfindən gecikdirilmədən iştirakçılara çatdırılmalıdır. Qeyd olunan maddənin 2-ci bəndinə əsasən belə məlumatı alan digər iştirakçılar (payçılar) iştirakdan(paydan) imtina haqqında məhkəməyə və ya təsis sazişində nəzərdə tutulduğu halda şirkətə müraciət etmirsə, imtina edən iştirakçılara onların kapital qoyuluşundakı paylarına münasibətdə bərabər davranılmalıdır. Əgər əlavə kapital qoyuluşu varsa, bu nominal dəyərə əlavə edilməlidir.

Buna paralel olaraq, həmin **Məcəllənin 823-cü** maddəsi **şirkətə öz iştirakçılarını (payçılarına) iştirakdan uzaqlaşdırmaq (çıxarmaq) hüququ verir**. Bu hüquq iki formada həyata keçirilə bilər:

1. Şirkət iştirakçının iştirakdan uzaqlaşdırılması üçün əsaslı səbəb göstərməklə **məhkəməyə** müraciət edə bilər.

2. Təsis sazişində şirkətin belə hüququnu nəzərdə tutan müddəa varsa və təsis sazişində göstərilmiş şərtlər mövcuddursa, **məhkəməyə müraciət etmədən iştirakçıların qərarı** ilə iştirakçının uzaqlaşdırılması.

Eyni zamanda, uzaqlaşdırılan və ya paydan imtina edən iştirakçının şirkətdəki payına uyğun kompensasiya almaq hüququ var. Çünki, qanunvericiliklə iştirakdan uzaqlaşdırılan və ya imtina edən iştirakçının payını müsadirəsinə icazə verilmir.

***Rusiya Federasiyası***

Rusiya federasiyasında MMC-lərdə nizamnamə kapitalının artırılması çoxmərhələli prosedurdur. Hal hazırda həmin prosedur MMC –lər haqqında federal qanunla (08.02.1998 tarixli №14-F3) tənzimlənir. Nizamnamə kapitalında pay haqqı iştirakçının cəmiyyətdə statusunun göstəricisidir. Müvafiq olaraq bu hüquq MMC-nin iştirakçısına digər hüquq və vəzifələri doğurur. Nizamnanə kapitalının artırılması prosesini şərti olaraq 3 mərhələyə bölmək olar.

1) **MMC-nin nizamnamə kapitalının artırılmasına dair payçıların qərarı olmalıdır.** Bu halda aşağıdakı şərtlər qarşılanmış olmalıdır:
    - İlkin nizamnamə kapitalı dövlət qeydiyyatından bir il müddət keçməmiş olsa belə tam ödənmiş olmalıdır
    - Əmlak hesabına artırılan kapitalın məbləği cəmiyyətin xalis aktivlərinin nizamnamə kapitalı və rezerv fondu məbləği həcminin fərqindən yuxarı olmamalıdır

- İkinci ilin sonuna və növbəti hər maliyyə ili xalis aktivlərin dəyəri onun nizamnamə kapitalından aşağı olmamalıdır. Əks təqdirdə cəmiyyət nizamnamə kapitalının həcmini xalis aktivlərin həcmi həddinə qədər azaltmalıdır.
- Bitən hər ilin sonuna xalis aktivlərin dəyəri nizamnamə kapitalının minimal həcmindən aşağı olmamalıdır, əks təqdirdə cəmiyyət ləğvolunmaya məruz qalacaqdır.

2) **Cəmiyyətin nizamnamə kapitalının artırılması məbləğinin ödənilməsi**

- Cəmiyyətin hesablaşma hesabına vəsaitin mədaxil olunması, cəmiyyətin balansına əmlakın mədaxil olunması o cümlədən cəmiyyətin əmlakının kapitala yönəldilməsi üsulundan biri ilə mümkündür.

3) **Dövlət qeydiyyatı** nizamnamə kapitalı artırılarkən həyata keçiriləsi növbəti mərhələdir.

- Bütün dəyişikliklər nizamnamədə öz əksini tapmalıdır

**Nizamnamə kapitalının artırılması üsulları:**

***Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması***

Məhdud Məsuliyyətli Cəmiyyət sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə yaradılır, müvafiq olaraq da o öz əmlakı müqabilində gəlir əldə edir. Bununla yanaşı MMC-lər, vətəndaş əlaqələrinin tamhüquqlu üzvü sayılaraq əmlak üzərində tam hüquqa malikdir. Məhz belə bir əmlak sayəsində (və ya Cəmiyyətin fəaliyyətini həyata keçirən zaman əldə etdiyi hüquqlar sayəsində) nizamnamə kapitalının artımı baş verir. Buna görə də, Cəmiyyətin nizamnamə kapitalının artımının bu növünün fərqli cəhəti ondadır ki, bu zaman əmlakın sayı və dəyəri dəyişmir. **Bundan başqa, şirkət üzvlərinin payları əsasında təşkil edilən say və**

**faiz nisbəti dəyişməz olaraq qalır, dəyişən yalnız hər bir üzvün payının nominal dəyəridir.**

Nizamnamə kapitalının belə artımının mənbəyi yalnız cəmiyyətin əmlakının balans dəyərinin onun öhdəliklərinin cəmi həcmində azaldılmış xalis aktivləri ola bilər. Başqa sözlə, söhbət MMC-lərin əmlakının keçən ilin mühasibat hesabatları əsasında müəyyən edilən real dəyərindən gedir.

Bundan başqa, xalis aktivlərin köçürülməsində nizamnamə kapitalının artırılması zamanı hesabdan cəmiyyətin kapitalının nominal dəyəri və ehtiyat fondunun dəyəri çıxılır.

Artımın həcmi saxta artımı deyil, real artımı əks etdirsin deyə FQ-nun 14-cü maddəsinin 18-ci səhifəsi, 2-ci paraq.-na görə cəmiyyətin nizamnamə kapitalının artan hissəsi xalis aktivlərlə nizamnamə kapitalı və onun ehtiyat fondunun arasındakı fərqi üstələməməlidir.

Nizamnamə kapitalının artırılması barədə qərar cəmiyyətin bütün üzvləri tərəfindən ümumi yığıncaqda üzvlərin 2/3-nin iştirakı ilə keçirilir. Lakin qanunvericilik cəmiyyətin nizamnaməsinə əsasən bu qərarın qəbulu zamanı səslərin lazım ola biləcək saya qaldırılmasına imkan verir. Buna görə də, nizamnamə xüsusi normaya malik olduğu təqdirdə lazım olan səs çoxluğu 100 faizə kimi də qaldırıla bilər. Lakin, FQ-nun 14-cü bəndinin 18-ci maddəsinə əsasən nizamnamə kapitalının artırılması məqsədilə səslərin sayının azaldılmasına icazə verilmir. Bununla da, qanunvericilik cəmiyyətin üzvlərinin maraqlarını zəmanət altına alır.

***Ortaqların əlavə investisiyaları hesabına***

Nizamnamə kapitalının artırılmasının ikinci yolu bütün iştirakçıların əlavə yatırım etməsidir. Bu üsulun xüsusiyyəti ondan ibarətdir ki, MMC-nin vəsaitinin həcmi əlavə yatırımların nominal dəyəri məbləğində artır. Bu üsul nizamnamə kapitalının

MMC-nin əmlakı hesabına artırılmasından tamamilə fərqlənir. Əlavə yatırımları pul vəsaitləri, əmlak və əmlak hüququ hesabına həyata keçirmək olar. Bu halda, pul vəsaitləri, əmlak və əmlak hüququ MMC-yə ötürülür. Eyni zamanda, əlavə yatırım etmiş iştirakçının payının nominal dəyəri əlavə yatırımın dəyəri məbləğində artır, real dəyəri isə nominal dəyərə mütənasibdir. Ilk mərhələdə nizamnamə kapitalının artırılması barədə qərar qəbul edilməlidir. № 14-FQ qanunda müəyyən edildiyi kimi nizamnamə kapitalının artırılması barədə qərar iştirakçıların yığıncağı zamanı **üçdə ikidən az** olmayan səs çoxluğu nəticəsində qəbul olunur. Bu qanunla müəyyən olunmuş minimum səs sayıdır. MMC-nin nizamnaməsində məsələ ilə bağlı qərar üçün lazım olan səs sayı artırıla bilər.

Nizamnamə kapitalının artırılması barədə qərar aşağıdakı məlumatları ehtiva etməlidir:

**Birincisi**, əlavə yatırımların ümumi dəyəri müəyyən olunmalıdır. Bu nizamnamə kapitalının hansı məbləğdə artacağını müəyyən etmək üçün zəruridir.

**İkincisi**, qərar bütün iştirakçılar üçün əlavə yatırımın dəyəri və payın nominal dəyərinin artdığı məbləğ arasında vahid nisbət müəyyən edir.

### *Üçüncü tərəflərin investisiyaları hesabına*

Nizamnamə kapitalının artırılması üsulunun bir neçə xüsusiyyəti var.

1. Bir və ya daha çox iştirakçılar və ya üçüncü tərəf əlavə yatırım edərsə iştirakçıların payının tək nominal dəyəri deyil hətta payların faiz nisbəti də dəyişir. Payın nizamnamə kapitalında nisbətindən iştirakçının payının əsil dəyəri və MMC-nin fəaliyyətindən gələn mənfəətin bölüşdürülməsi asılıdır.

2. Nizamnamə kapitalının artırılması üçün bu üsuldan istifadə edildikdə iştirakçıların tərkibi dəyişə bilər: iştirakçıların siyahısına üçüncü şəxslər əlavə oluna bilər.

Bu üsuldan istifadə olunduğu zaman eyni zamanda bir neçə qərar qəbul olunmalıdır:

- Istirakçının əlavə yatırım etmək istəyi barəsində ərizə əsasında nizamnamə kapitalının artırılması barədə qərar və ya üçüncü şəxs tərəfindən iştirak payı yatırmaq barədə ərizə əsasında qərar.
- MMC-nin nizamnaməsinə dəyişikliklərin edilməsi barədə qərar.
- Üçüncü tərəfin MMC-yə qəbulu. Bu qərar yekdilliklə qəbul olunmalıdır.